# AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN UŞAQ CƏRRAHLIĞI KAFEDRASININ İNKİŞAF STRATEGİYASI

AZƏRBAYCAN
TİBB UNİVERSİTETİ

# KAFEDRA İŞİNİN ƏSAS ISTIQAMƏTLƏRI

Kafedrada tədris edilən fənlər üzrə tədris-metodiki işin yüksək elmi səviyyədə təşkili və aparılması

Kafedranın profili və elmi proqramlar üzrə elmi tədqiqatların həyata keçirilməsi

Elmi-pedaqoji və elmi kadrların hazırlanması

Rezidentura pilləsində təhsil alan həkim rezidentlərin hazırlığı

Doktorantura pilləsində təhsil alan doktarantlatrın hazırlığı

# Tədris-metodiki işlər üzrə

1. Müasir səviyyədə bilik, bacarıq və səriştələrə malik məzunların hazırlanmasını təmin etmək, tədrisin müasir standartlara uyğun təşkil edilməsi, tələbələrin nəzəri bilik və praktik vərdişlərinin daha da artırılması;

2. Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin təcrübəsinə əsaslanaraq standartlara yğun təhsil proqramlarının və səriştələrə nəzarət sistemlərinin hazırlanması;

3. Yeni elektron tədris materiallarının hazırlanması və hazır materialların elmi yeniliklərə uyğun olaraq yenilənməsi;

4. Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin istifadə etdikləri tədris və tədris-metodiki ədəbiyyata uyğun olaraq bakalavr pilləsində tədris olunan fənlərə uyğun azərbaycan və ingilis dilində ədəbiyyatların (dərslik, dərs vəsaiti, metodik vəsait) hazırlanması və nəşri;

5. Digər universitetlərin və elmi-tədqiqat institutlarının müvafiq kafedraları ilə qaradıcılıq əlaqələrinin inkişafı;

# Tədris-metodiki işlər üzrə

6. Kafedranın professor-müəllim heyətinin təlim bacarıqlarının müasir təlim texnologiyalarına müvafiq olaraq təkmilləşdirilməsi;

7. Kafedranın professor-müəllim heyətinin müasir tələblərə uyğun dil (xüsusilə ingilis dili) bacarıqlarının artırılması;

8. Kafedraya müasir tələblərə cavab verən və dil bacarığına malik gənc müəllim kadrlarının cəlb olunması;

9. Tələbələrin praktik vərdişləri daha yaxşı mənimsəməsi üçün qabaqcıl ali təhsil müəssisələrinin istifadə etdiyi müasir təlim üsullarının araşdırılması və istifadəsi;

10. Kafedrada tələbələrin milli ruhda formalaşması, vətənpərvər olması istiqamətində işlərin həyata keçirilməsi;

# *Tədris-metodiki işlər üzrə*

11. Tədris prosesində kompüter texnologiyalarından istifadənin təkmilləşdirilməsi;

12. Kafedrada tədrisə uyğun ədəbiyyatla təhciz olunmuş kitabxananın yaradılması

13. Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün istifadə edilən sorğu materiallarının təkmilləşdirilməsi;

14. Kafedrada tədris prosesində problem əsaslı öyrədilmə üsullarının istifadə edilməsi;

15. Tələbələrin ixtisas üzrə bacarıqların artırılması üçün Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə və Uşaq problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyətli qurumlarla əməkdaşlığın qurulması;

# Kafedranın elmi-tədqiqat işi sahəsində

1.Yeni prioritet istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi;

3. Kafedra əməkdaşlarının elmi işlərinin Beynəlxalq indeksləşdirilmiş elmi mətbuatda nəşri; Beynəlxalq və Milli elmi tədbirlərdə sözlü və poster iştirakının artırılması; müxtəlif ixtisasartırma kurslarında iştirakının təmin edilməsi;

5. Yeni prioritet istiqamətlər üzrə elmi tədqiqatların planlaşdırılması və həyata keçirilməsi

2. Beynəlxalq qrant layihələrinə (Horizon, COST və s.) qoşulmaq üçün Avropa və Asiyanın qabaqcıl tibb və digər müvafiq ali təhsil müəssisələri və elmi-tədqiqat institutları ilə əlaqələrin qurulması;

4. Respublika üzrə qrant layihələrinə qoşulmaq üçün kafedranın elmi potensialının səfərbər edilməsi;